Lider yolu regional gücdən qlobal zirvələrə

Bu gün ölkəmiz beynəlxalq arenada mövqeyini möhkəmləndirərək regional lider statusuna yüksəlib və qlobal müstəvidə söz sahibinə çevrilib. Prezident İlham Əliyevin milli maraqlara söykənən məqsədyönlü siyasəti nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da artıb.

Azərbaycan təkcə Cənubi Qafqazda deyil, həmçinin Avropa və Asiya arasında strateji əlaqələrdə mühüm rol oynayan güclü dövlətdir. Ölkəmizin bugünkü uğurlarının kökləri isə ümummilli lider Heydər Əliyevin qoyduğu möhkəm təmələ söykənir. Heydər Əliyev müasir Azərbaycanın memarı, eyni zamanda onun inkişaf yolunu müəyyənləşdirən, gələcək nəsillərə dövlətçilik irsi bəxş edən dahi liderdir. Ulu öndərin formalaşdırdığı milli strategiya ölkənin müstəqilliyini möhkəmləndirmək, iqtisadiyyatı dirçəltmək və beynəlxalq münasibətlərdə balanslı siyasət yürütmək məqsədi daşıyırdı. Prezident İlham Əliyev bu siyasəti davam etdirərək ölkənin inkişafını dayanıqlı şəkildə təmin edən çoxşaxəli addımlar atdı. Həm siyasi, həm də iqtisadi sahələrdə həyata keçirilən islahatlar Azərbaycanın qlobal enerji təhlükəsizliyində mövqeyini möhkəmləndirdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi ədaləti bərpa etdiyi mühüm hadisə oldu. Ermənistanın üç onillik ərzində davam edən işğalı nəticəsində məcburi köçkünə çevrilmiş bir milyondan çox insanın torpaq həsrətinə son qoyuldu. Bu müharibə yalnız ərazi bütövlüyünün bərpası ilə yekunlaşmadı, eyni zamanda Azərbaycan xalqının sarsılmaz iradəsini və milli birliyini nümayiş etdirdi. Prezident İlham Əliyevin siyasi-diplomatik uğurları ilə dünya ictimaiyyəti Azərbaycanın haqlı olduğunu açıq şəkildə gördü. Həm döyüş meydanında, həm də siyasi müstəvidə əldə olunan bu qələbə Azərbaycanın güclü dövlətçilik ənənələrini və müstəqil siyasət yürütmək əzmini bütün dünyaya sübut etdi. Xalq, dövlət və ordu birliyi Qarabağ zəfərini təmin etdi.

2024-cü ildə Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas zirvəsi işğaldan azad edilmiş ərazilərlə dövlət suverenliyini tam bərpa edən bütöv Azərbaycanda ilk dəfə keçirilən prezident seçkilərində qələbəsi oldu. Bu hadisə xalqın liderinə göstərdiyi inamın ifadəsi kimi tarixə düşdü. Seçkilərdə Prezident İlham Əliyevin inamlı qələbəsi xalqın öz liderinə olan etimadının bir daha təsdiqidir. Prezident seçkilərindən sonra ölkə başçımıza ünvanlanan çoxsaylı təbrik məktubları cənab İlham Əliyevin şəxsi nüfuzunun göstəricisidir.

Xüsusilə, ötən il COP29 tədbirinin Bakıda keçirilməsi Prezident İlham Əliyevin timsalında Azərbaycanın qlobal səviyyədə etibarını təsdiqlədi. 80-dən çox dövlət və hökumət başçısının, 76 mindən çox iştirakçının qatıldığı tədbir ölkəmizin yüksək təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirdi. COP29 zamanı əldə edilən əsas razılaşmalardan biri zəngin ölkələrin kasıb ölkələrə hər il 300 milyard dollar iqlim dəyişmələri ilə mübarizəyə yardım ayırması oldu. Bu, Azərbaycanın qlobal problemlərin həllində fəal iştirak etdiyinin sübutudur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə artıq Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri həyata keçirilir. İşğaldan azad edilən ərazilərdə aparılan yenidənqurma işləri, infrastrukturun bərpası və Böyük Qayıdış proqramının icrası ölkənin sosial-iqtisadi inkişafına yeni impuls verdi. 2024-cü ildə bu layihələrə ayrılan 4 milyard manatlıq büdcə vəsaiti dövlətin bu prosesə verdiyi strateji önəmin göstəricisidir. Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər, yollar, xəstəxanalar, məktəblər və digər infrastruktur obyektləri istifadəyə verilir. Prezidentin bölgəyə mütəmadi səfərləri, hər layihəyə şəxsən nəzarət etməsi, xalqla yaxın təması dövlət başçısının bu məsələyə verdiyi əhəmiyyəti göstərir. Cənab Prezident ötən il dekabrın 31-də - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti zamanı 2025-ci il üçün Qarabağ və Şərqi Zəngəzura 4 milyard manat ayrıldığını bildirib. Ölkə başçımız, həmçinin bu məbləğin Ermənistanın silahlanma siyasəti ucbatından hərbi xərclərdən az olduğunu vurğulayıb.

(davamı 3-cü səhifədə)

Lider yolu regional gücdən qlobal zirvələrə

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidentinin Qərbi Azərbaycana Qayıdış konsepsiyası da milli ideyanın əsas sütunlarından birinə çevrilib. Cənab İlham Əliyevin qətiyyətli çıxışları və siyasəti, bu ideyanın cəmiyyətdə güclü dəstək qazanmasını təmin etmişdir. Prezidentin "Vaxt gələcək tarixi ədalət bərpa olunacaq" sözləri bu ideyanın Azərbaycanın gələcək strateji hədəflərindən biri olduğunu vurğulayır. Cənab Prezidentin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasında bir qrup ziyalı ilə görüşü və həmin vaxtdan etibarən mütəmadi olaraq öz çıxışlarında bu məsələyə xüsusi yer ayırması məhz Qərbi azərbaycanlıların da qarabağlılar kimi öz torpaqlarına dönüşünün heç də uzaqda olmadığını göstərir. Prezident İlham Əliyev ötən həftə yerli televiziya kanallarına müsahibəsində Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıdacaqlarını qeyd edib. Təəssüf ki, hələlik Ermənistan tərəfinin bu məsələyə qeyri-konstruktiv yanaşması və beynəlxalq qurumların sükutu Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıdışını ləngidir. Lakin Ali Baş Komandanın qətiyyəti əzəli torpaqlara qayıdışın reallaşması ilə nəticələnəcək.

Bu il əsas gözləntilərdən biri də Ermənistanla yekun sülh sazişinin imzalanmasıdır. Prezident İlham Əliyevin qətiyyətli siyasəti Azərbaycanın sülhü təmin etməkdə lider ölkə kimi tanıdır. Prezident dəfələrlə bildirmişdir ki, Azərbaycanın bütün qonşuları ilə dostluq münasibətləri prioritetdir və bu istiqamətdə addımlar davam etdiriləcək: "Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur. Buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək, görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir".

Prezident İlham Əliyevin xarici siyasət strategiyası xüsusi qeyd edilməlidir. 2024-cü ildə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvesiyasının Tərəflər Konfransına (COP29) uğurlu ev sahibliyi, Türk Dövlətləri Təşkilatındakı fəallığı və enerji diplomatiyası beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Xüsusilə, Avropa ilə enerji əməkdaşlığının gücləndirilməsi Azərbaycanın enerji sektorunda strateji oyunçuya çevrilməsini təmin etmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi layihələr bu siyasətin tərkib hissəsidir. Bu il də ölkəmiz bir sıra mötəbər tədbirlərə ev sahibliyi edəcək. Bunlar arasında "Dayanıqlı Meşəçilik və Biomüxtəliflik üçün Sinerji: Yaşıl Dünya naminə Əməkdaşlıq Dialoqu" beynəlxalq konfransı, VIII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, iyulun 24-dən 27-dək Xəzər dənizinin sahilində, Bakıda "Sea Breeze Resort"da keçiriləcək "DREAM Fest 2025" beynəlxalq musiqi festivalı, III MDB Oyunları, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Zirvə Toplantısı və s. də var.

Prezident İlham Əliyevin 2024-cü ildə həyata keçirdiyi siyasət Azərbaycanın həm daxili, həm də beynəlxalq səviyyədə güclənməsini təmin etmişdir. İnanırıq ki, bu uğurlu xətt cari il üçün də keçərli olacaq. Onun liderliyi ilə ölkəmiz tarixinin qızıl dövrünü yaşayır.

Ləman TƏHMƏZ,
"Respublika".